## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
## NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

### "İl ərzində 90 gündən çox olmayan müddətdə Naxçıvan Muxtar Respublikasında ezamiyyətdə olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin alınması tələb olunmayan fəaliyyət sahələrinin Siyahısı"nın təsdiq edilməsi barədə

"İl ərzində 90 gündən çox olmayan müddətdə Azərbaycan Respublikasında ezamiyyətdə olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin alınması tələb olunmayan fəaliyyət sahələrinin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 4 dekabr tarixli 387 nömrəli qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İl ərzində 90 gündən çox olmayan müddətdə Naxçıvan Muxtar Respublikasında ezamiyyətdə olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin alınması tələb olunmayan fəaliyyət sahələrinin Siyahısı" təsdiq edilsin (əlavə olunur).

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri:** **Ə.Baxşıyev**

«9» yanvar 2015-ci il

№ 1

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 9 yanvar tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmişdir

**İl ərzində 90 gündən çox olmayan müddətdə Naxçıvan Muxtar Respublikasında ezamiyyətdə olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin alınması tələb olunmayan fəaliyyət sahələrinin**

**S İ Y A H I S I**

1. Mədənçıxarma sənayesi
2. Emal sənayesi
3. Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat
4. İnformasiya və rabitə
5. Maliyyə və sığorta
6. Təhsil
7. Nəqliyyat
8. Su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi.